**Keçmişdən üzünə gülümsəyən uşaqlığından ayrıla bilməyən şair**

Bu sözaçımını gecikmiş təbrik hesab etmək olar. Hamlet İsaxanlının 60 yaşı bu ilin martında tamam olub. İndi sentyabrdır. Ancaq, gec də olsa, təbrik təbrikdir, - düşünərək ürək sözümüzü, arzu və istəyimizi riyaziyyat alimi, ictimai xadim, xalqına şan-şöhrət, şərəf gətirən şair Hamlet İsaxanlıya çatdırmağı özümüzə borc bildik. İnsanlıq borcu, eloğluluq, soybirliyi borcu. Dünyagörmüşlər borclu borclunun sağlığını istər kəlamını nahaqdan deməyiblər!..

Bir də noolsun ki?.. "Ey gecikmiş məhəbbətim"i məgər şair deməyib?! Nə isə, gecikməyə görə özünə haqq qazandırmaq cəhdindən sonra bir daha "Gürcüstan"ın oxucuları ilə uşaqlıq və gənclik həvəsini ahıllıq müdrikliyində yaşadan Hamlet İsaxanlını görüşdürək.

Əvvəla yaddaşımızı qurdalayıb qeyd edək ki, Qardabani rayonunun Kosalı kəndində doğulub, orta məktəbi qızıl medalla bitirən Hamlet Abdulla oğlu İsayev (İsaxanlı) 35 yaşında artıq fizika-riyaziyyat elmləri doktoru kimi rəqəmlər dünyasının poeziyasına qovuşmuşdu. Təbiətinə rahatlıq yad olan civə xarakterli gənc alimin ilk elmi yaradıcılıq əlaqələri onun fəal iştirakçısı olduğu Amerika Birləşmiş Ştatları, Kanada, Almaniya, Avstriya, İngiltərə, Şotlandiya, Polşa, Bolqarıstan, Türkiyə, İran, Hindistan, Pakistan, Çin, Birləşmiş Ərəb Əmirlikləri, sabiq Sovet respublikalarından Rusiya, Ukrayna, Belorusiya, Litva, Latviya, Estoniya, Gürcüstan, Ermənistan, Qazaxıstan, Özbəkistan və b. ölkələrdəki elmi konfranslarda, diskussiyalarda, çıxışlarda, təqdimatlarda sınaqlardan çıxıbdır.Bu da hamısı deyildir. Riyaziyyatçı alim Hamlet İsaxanlı haqqında rəy bildirən dünyanın aparıcı elmi idarələrinin başçıları, dünya şöhrətli alimlər onun intəhasız təfəkkürünü, adi görünən nəticələrdə fərqinə varılmayan incəliyi seçmə qabiliyyətini və ən başlıcası, dəqiq elmlərdə poeziya və musiqi ritmləri duyumunu xüsusi vurğulayırlar. Onlardan biri A. Dezinin sözlərincə, "H. İsaxanlı çətinliklərin öhdəsindən çox məharətlə gələn, maraqlı və çətin problemləri həll etməyi bacaran geniş erudisiyaya malik riyaziyyatçıdır". Belə! Geniş erudisiyaya malik alim! Bu, təkcə bir sahənin alimi demək deyildir!

Həmin Hamlet İsaxanlının intəhasız yaradıcılıq kəhkəşanında rəqəmlər, fəlsəfə, tarix, poeziya parlaqlıqları Qarayazı düzünün çəmənzarını xatırladır. Belə hal, təbii ki, öz soykökünə, xalqına incə tellərlə bağlı olan bəşəri düşüncəyə malik şəxslərdə

özünü göstərir və Azərbaycan xalqının tarixi keçmişi belə nümunələrdən xali deyildir. Kəsəsi, ömrünün 60 illik yüksəkliyində Hamlet İsaxanlı müdrikliyi və yaradıcılığı mənzərəsi belə görünür.

“Poeziya dilnən sadə ifadə oluna bilməz, poeziyanı duymaq olar”- deyir H. İsaxanlı. Məşhur filosof, Azərbaycanın əməkdar elm xadimi Camal Mustafayev şairin orijinallığını, təkrarolunmazlığını onun özünəməxsusluğu, bənzərsizliyi ilə izah edir. Alimin dəqiqləşdirməsində Hamlet poeziyası sadəcə bədii zövqü oxşamaqla məhdudlaşmır, onda estetiklik canlı fikirlərlə vəhdətdə poetik əksini tapır. Dəqiq və birmənalı!

Bu qısa təbrik- təqdimatda Hamlet İsaxanlı yaradıcılığında bədii ifadə vasitələrinin təhlili qarşıya məqsəd qoyulmayıbdır. Maraq dairəsi 60 yaşlı tanınmış şairin öz uşaqlığı və gəncliyi ilə ayrıla bilməməsinin sirlərinə işıq salmaq cəhdindən ibarətdir. Təbii, şairin öz sözlərilə!

İki il öncə Tbilisi Politexnik Universitetindəki görüşündə Hamlet müəllim özündə eyni vaxtda uşaqlığın, gəncliyin və ahıllığın qoşalaşdığını qeyd etdi və bu sahədə özünün özü ilə bacarmadığını vurğuladı. Görünür, indinin özündə də gənclik təbəssümü onda ilham və gümrahlıq mənbəyi kimi əbədi yaşayır. Yaşasın!

Süleyman Əfəndi